*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 421-429*

https://doi.org/10.62837/2026.4.421

AMEA akad.Z.M.Bünyadov adına
Şərqşünaslıq İnstitutunun İran
filologiyası şöbəsinin aparıcı elmi
işçisi, dos. **RƏNA N.RZAYEVA.**
rzayevar1958@gmail.com

# SEYİD ƏZİM ŞİRVANİ YARADICILIĞINDA ″İLAHİ EŞQ″

***XÜLASƏ***

Məqalədə Azərbaycan klassik şeirinin görkəmli nümayəndəsi, Füzuli irsinin davamçısı Seyid Əzim Şirvaninin yaradıcılığının təsəvvüfi, irfani tərəfini qismən tədqiq edilir. Azərbaycan ədəbiyyatında xüsusi yeri olan Seyid Əzim Şirvani yaradıcılığa XIX əsrin 50-ci illərində başlamışdır. O, ilk şeirlərini Məhəmməd Füzulinin təsiri ilə yazmışdır və buna görə də Füzulinin davamçısı kimi qəbul olunmuşdur. Məhz Füzulinin davamçısı olmaqla onun da poeziyasının əsasında eşq durur və bu eşq dünyəvi eşqdən çox İlahi eşqdir. Məqalədə onun İlahi eşqə verdiyi xüsusi diqqət nəzərə çatdırılır. Şair dünyəvi bildiyimiz eşqin əsasında Tanrıyla qovuşmağa aparan İlahi eşqin durduğunu oxucuya çatdırır. Qəlbində bu eşq olmayan kəsin qəlbinin boş olduğunu, insan kimi kamil olmadığını göstərir. Seyid Əzimin yaradıcılığının bu tərəfi təsəvvüfi bir material kimi olduqca maraqlıdır və onun daha dərindən öyrənilməsinə, tədqiqinə, şübhəsiz ki, hələ də ehtiyac duyulmaqdadır.

***Açar sözlər:*** Seyid Əzim Şirvani, təsəvvüf, İlahi eşq, şeir, poeziya, şair.

## *«БОЖЕСТВЕННАЯ ЛЮБОВЬ» В ПРОИЗВЕДЕНИЯХ СЕЙИДА АЗИМА ШИРВАНИ* ПОЭЗИЯ, ПОЭТ.

**РЕЗЮМЕ**

В статье частично рассматривается суфийская сторона творчества Сейида Азима Ширвани, известного представителя азербайджанской классической поэзии, преемника наследия Физули. Сейид Азим Ширвани, занимающий особое место в азербайджанской литературе, начал свое творчество в 50-х годах XIX века. Свои первые стихи он написал под влиянием Мухаммеда Физули, и поэтому был признан его преемником. Будучи преемником Физули, его поэзия основана на любви, и эта любовь в большей степени Божественная, чем мирская. В статье обращается внимание на тот особенный момент как поэт отделяет Божественную любовь от мирской. Поэт передает читателю, что основой любви, которую мы знаем как мирскую, является Божественная любовь, ведущая к единению с Богом. Он показывает, что сердце человека, в котором нет этой любви, пусто, он несовершенен как человек. Эта сторона творчества Сейида Азима представляет большой интерес как мистический

материал, и, несомненно, существует необходимость в ее более глубоком изучении и исследовании.

***Ключевые слова:*** Сейид Азим Ширвани, суфизм, божественная любовь,

**RANA N.RZAYEVA**

***SEYID AZIM SHIRVANI'S WORK "DIVINE LOVE"***

**SUMMARY**

The article partially studies the mystical and mystical side of the work of Seyid Azim Shirvani, a famous representative of Azerbaijani classical poetry, a successor to the Fuzuli legacy. Seyid Azim Shirvani, who holds a special place in Azerbaijani literature, began his work in the 50s of the 19th century. He wrote his first poems under the influence of Muhammad Fuzuli, and therefore he was accepted as a successor to Fuzuli. Being a successor to Fuzuli, his poetry is based on love, and this love is more Divine love than worldly love. The article draws attention to the special attention he pays to Divine love. The poet conveys to the reader that the basis of the love we know as worldly is Divine love, which leads to union with God. It shows that the heart of a person who does not have this love in his heart is empty, he is not perfect as a human being. This side of Seyid Azim's work is very interesting as a mystical material, and there is undoubtedly still a need for its deeper study and research.

***Key words:*** Seyid Azim Shirvani, Sufism, Divine love, poetry, poetry, poet.

Azərbaycan ədəbiyyatından, poeziyasından, Azərbaycan ziyalısı, maarif xadimindən söz açıb Seyid Əzim Şirvanini xatırlamamaq mümkün deyildir. Seyid Əzim Şirvani istər şair, istər millətini, xalqını dərin bir məhəbbətlə sevən, onun görünən və görünməyən eyiblərini aşkar edib qələmə alan, vətən övladlarının maariflənməsi yolunda mücadilə edən və bir çox özəlliklərə malik böyük bir şəxsiyyətdir.

Seyid Əzim Şirvani heç bir yeni poetik forma icad etməmişdir, lakin o, ənənəvi klassik Şərq şeir janrları çərçivəsində ″polad kimi bitkin və möhkəm, qəlbin dərinliklərindən aşıb gələn şeirlər″ yazmış, əski formalarda müasir həyat məsələlərini, insan münasibətlərini real şəkildə ustalıqla əks etdirmişdir. (6, s.11)

Seyid Əzim Şirvani XIX əsr Azərbaycan ədəbiyyatının klassik poeziya ənənələrini böyük ustalıqla davam etdirən ən qüdrətli sənətkardır. Milli poeziyamızın inkişaf tarixində o, incə ruhlu, lirik, cəmiyyətin sosial bəlalarını cəsarətlə tənqid edən satirik əxlaqi-tərbiyəvi mənzum hekayələr və təmsillər müəllifi, nəhayət, ədəbiyyatşünas-təzkirəçi kimi məşhurdur. Seyid Əzim irsinin böyük bir qismi lirik şeirlərdən ibarətdir. Qəzəl, qəsidə, rübai, qitə, müxəmməs, müstəzad və s. janrlarda yazılmış həmin əsərlərdə Seyid Əzim Şirvani Füzuli ədəbi məktəbinin ənənələrini

 *ISSN 2224-9257*

davam və inkişaf etdirmişdir. Onun lirikası mövzu və bədii estetik məzmun baxımdan çox zəngindir. (3,s.3)

Görkəmli maarifçi, mətbuat xadimi, Azərbasycanda tənqidi realizmin aparıcı nümayəndələrindən olan Seyid Əzim Şirvani öz lirik şeirləri ilə Məhəmməd Füzulinin davamçısı kimi çıxış edirdi və onun lirik şeirləri İlahi eşqin tərənnümü ilə bağlı idi. Mütəfəkkirin yaradıcılığında fərqli və orjinal tərəflərdən biri də məhz onun dini cəhalətə qarşı mabarizə aparması ilə yanaşı, həm də Allaha böyük məhəbbət bəsləyən bir təsəvvüf şairi olmasıdır. (3,s.5)

Şairin əsərlərində məhəbbət insanı ucaldan, onun mənəvi-əxlaqi cəhətdən kamilləşdirən, bəzi məqamlarda hətta Tanrıya qovuşduran bir qüvvə kimi təsvir olunur:

Hər bir könüldə eşq ola, şadan edər onu,
Eylər xəzan olan çəməni novbahar eşq.
Hər kəsdə yoxdur eşq, onun bir kamalı yox,
Kamil olan vücudlər eylər şüar eşq. (4,s.15)

Seyid Əzimin fikrincə eşq insanı daxilən saflaşdırır, gözəlləşdirir; onu xeyirxah, nəciblik yoluna yönəldir və mənəvi ucalığa aparır. Əgər bir kəs sevgisiz, məhəbbətsiz yaşayırsa, o şəxsin daşdan fərqi yoxdur. Şairə görə eşq ucalıq və şərafət yoludur. Həqiqi aşiqlər Allahın sevdiyi bəndələrdir. Qəlbi məhəbbətlə döyünən insan həmişə ülviyyət aləmindədir. Eşqə ayaqlanmaq göylərə yüksəlməyin əsas şərtidir. Eşq ilə tapdananların başı səmaya çatar:

Başın yetər səmayə şərafətlə, Seyyida,
Eşq ilə pamal ola bilsən turab tək. (4,s.15)

Seyid Əzim Şirvaninin həyatı kimi, onun dünyaya baxışları da ziddiyyətli olmuşdur. Mütəfəkkirin fəlsəfi baxışlarının üç istiqamətdə inkişaf etdiyini deyə bilərik. Belə ki, Seyid Əzim Şirvani tərəqqipərvər maarifçi, xürafata və geriliyə qarşı mübarizə aparan tənqidçi-realist və Allaha böyük sevgisi olan təsəvvüf şairi olmuşdur. Seyid Əzim hesab edirdi ki, Allahla insan arasında sədd çəkən İslam dini adı altında çıxış edən riyakar ruhanilərdir. Bu anlamda şair İslam dininin günü-gündən «naxoş»lamasının başlıca səbəbkarı kimi hər hansı məzhəbə qulluq etməsinə baxmayaraq, onun adından çıxış edən bütün riyakar ruhaniləri, zahidləri, mollaları göstərmişdir. (9)

Seyid Əzim Şirvaninin məhəbbət lirikasından söz açarkən alimlərin bir çoxu ya onun yaradıcılığında İlahi eşqin yer aldığı fikrinə qarşı çıxmış - əsərlərində tərənnüm olunan eşqi yalnız bəşəri sevgi, real gözlə məhəbbət hesab etmişlər, ya da sufizmin onun yaradıcılığına təsirinin çox cüzi olduğunu söyləmişlər. Qeyd edək ki, yaradıcılığı təsəvvüfə bağlı olan şairlərin əsərlərində sufizm meyllərini tamam inkar etmək, yaxud bu cəhəti şairin dünyagörüşünün məhdud, ziddiyyətli cəhəti hesab etmək – sovet ideologiyasının basqısı altında tədqiqatçıların məcburiyyətdən atmalı olduğu bir addım kimi dəyərləndirilməlidir. (8, s.10,11)

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 421-429*

Ədibin lirikasının janr-üslub xüsusiyyətlərinin ətraflı şəkildə araşdırılması nəticəsində onun lirikasında məhəbbət mövzusundan bəhs edərkən dünyəvi eşqlə yanaşı, İlahi eşqin də olması öz təsdiqini tapmışdır. (1,s.72)

Seyid Əzim Şirvaninin yaradıcılığında orta əsrlərdən etibarən bütün Şərq ədəbiyyatında geniş vüsət tapmış təsəvvüf sistemli mistik təlim kimi deyil, daha çox mənəvi-əxlaqi və irfani motivlər şəklində təzahür edir. Bildiyimiz kimi, orta əsr Şərq ədəbiyyatında təsəvvüfün müstəsna yeri vardır. Sənətin bütün növlərinə sirayət etmiş təsəvvüf ədəbiyyatda ən zirvə məqamına çatmışdır. Şairin yaradıcılığında təsəvvüfi fikirlərin yer almasının başlıca səbəbi də, əslində onun səfərə çıxdığı dövrlərdə təsəvvüfün geniş yayıldığı Şərqin elm və bilik, dini – mədəni mərkəzləri ziyarət edib bu təlimə müəyyən qədər yiyələnməsi olmuşdur. Maarifçi mütəfəkkirin zəngin dünyagörüşü müxtəlif dini elmləri, Şərq fəlsəfəsini, ərəb ədəbiyyatını, İslam tarixini, ərəb dilinin sərf-nəhvini mükəmməl bilməsi sayəsində idi. (8, səh, s.11; 10)

Seyid Əzim Şirvani klassik şərq poeziyası ənənələrinə bağlı olaraq yaradıcılığında sufiliyə, artıq dediyimiz kimi, müəyyən qədər, yer vermişdir. Əslinə qalsa, klassik şeir növündə, bir qədər dərinə gedəndə mütləq təsəvvüfi fikirlə üzləşirsən. Seyid Əzimin yaradıcılığında sufilik özünü, əsasən, iki istiqamətdə göstərir; klassik təsəvvüfi poetik motivlərdən istifadə və bəzi hallarda zahidlik və riyakarlığın tənqidi. Bu xüsusiyyətlər onu klassik sufi şairlərdən fərqləndirir.

Öz yaradıcılığında Seyid Əzim Şirvani istər elmi əsas götürən alimlərin, istər ağılı idrakın əsası hesab edən filosofların, istərsə də insan ruhunu hərəkətə gətirən, insanı Allaha qovuşduran eşqi əsas götürən sufilərin xələfi kimi onların fikir və düşüncələrini əks etdirərək həm elmə, həm ağıla və həm də eşqə, məhəbbətə eyni dərəcədə yanaşmış, özünü bir alim, bir filosof, bir şair və bir mütəfəkkir kimi təsdiq etmişdir. Seyid Əzim Şirvaniyə görə elm, bilik insanı doğru yola çıxarır, ağıl, idrak, zəka insanı nurlandırır, onu Haqqa doğru yönəldir, eşq, məhəbbət isə insanı Tanrıya qovuşdurur. (2,s.8)

Seyid Əzimin ayrıca ″sufi risaləsi″ və ya sırf təsəvvüf traktatı yoxdur və sufilik mövzusu əsasən şairin ″Divan″inda (qəzəl, qəsidə və müxəmməslərdə) poetik şəkildə verilir.

Seyid Əzimin müraciət etdiyi əsas təsəvvüfi mövzular kimi ilahi eşq, fani dünya ideyası, nəfsin tərbiyəsi, vəhdət anlayışı, mürşid-mürid münasibətləri göstərilə bilər. Şairin poeziyasında dünya malının fani olması, qəlbin saflaşdırılması, zahiri ibadətdən çox batini təmizliyin üstünlüyü, eşqin (İlahi eşq) insanı kamilləşdirməsi kimi ideyalar daha çox qəzəllərdə, müxəmməslərdə, qəsidələrdə öz əksini tapmışdır. Seyid Əzim maarifçi şair olduğu üçün cəhaləti, fanatizmi, özünü zahid göstərən riyakarları sərt şəkildə tənqid edirdi. O bir çox satirik şeirlərində ″zahid″, ″şeyx″, ″molla″ obrazlarını, zahiri dinçiliyi, həqiqi mənəviyyatdan uzaq olmağı tənqid edirdi. Bu baxımdan onun sufilik anlayışı həqiqi mənəviyyatı qəbul etmək, formal və riyakar zahidliyi inkar etməkdən ibarətdir. Əslində elə sufiliyin özündə də əsas ideya

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 421-429*

səmimiyyət, hər şeyin doğru-dürüst olmasıdır. Təsadüfi deyil ki, el arasında sadə, sadəlövh insanlara ″sufi″ deyirlər. Bu cür insanlar hər şeyi Allaha, qədər-qismətə bağlayır, dünya malını inkar edib iç aləmlərinin təmizlənməsi ilə məşğuldurlar.

Şairin ayrıca, müstəqil ″sufi poeması″olmasa da, ″eşq″, ″fani″, ″dünya″, ″haqq″, ″qəlb″ motivləri ilə İlahi eşq və fanilik mövzulu qəzəlləri, əxlaqi-irfani müxəmməsləri, hikmətamiz nəsihət şeirləri təsəvvüf məzmunlu əsərlər kimi dəyərləndirilə bilər.

Şübhəsiz ki, Seyid Əzimi klassik sufilərdən fərqləndirən müəyyən xüsusiyyətlər mövcuddur. Klassik sufi şairlərdə əsas ideologiya təsəvvüfdür, Seyid Əzimdə isə maarifçilikdir; sufilərdə mistika üstünlük təşkil edirsə, Seyid Əzimdə sosial tənqid güclüdür; sufilərdə təriqət ruhu güclüdür, Seyid Əzimdə isə rasional və realist yanaşma üstünlük təşkil edir; sufilərdə riyazət və zahidlik əsas şərtdir, Seyid Əzimdə isə riyakar zahidlər tənqid hədəfidir. Deməli, Seyid Əzim sufiliyin estetik və mənəvi ideyalarından bəhrələnmişdirsə də, təriqətçi, mistik olmamışdır; həqiqi mənəviyyatı müdafiə edib, saxta zahidlik, fanatizmi tənqid etmişdir.

Sadaladığımız bütün bu fərqlərlə bərabər, Seyid Əzim yaradıcılığında təsəvvüfi fikirlərin mövcudluğunu, onların dərin sufi məzmununu görməmək, sezməmək mümkün deyildir. Qeyd etdiyimiz kimi, Seyid Əzimin yaradıcılığında İlahi eşq bir təsəvvüfi xətt kimi təzahüt etməkdədir. İlahi eşq, bildiyimiz kimi, İslamda, təsəvvüfdə ən ali bir anlayışdır. Heç bir məhəbbət, sevgi İlahi eşqdən kənarda mövcud ola bilməz. Şairin yaradıcılığında da eşq çox zaman zahiri məhəbbət kimi deyil, insanı saflaşdıran, nəfsdən uzaqlaşdıran bir qüvvə kimi təqdim olunur. Eşq insanı kamilləşdirir, insan qəlbini əzab vasitəsilə təmizləyir, bu şeirlərdən anlanır ki, aşiq fənadır, eşq isə baqidir. Keçici olan, ötüb keçə bilən heç bir şey sevilə bilməz, yəni fani olan heç bir şey məşuq ola bilməz, yalnız mütləq olan Haqq eşq obyekti ola bilər, çünki O baqidir. Ümumilikdə, İlahi eşq nəfsin tərbiyəsi, qəlbin saflaşması, Allah sevgisinə yüksəliş ideyasına bağlıdır.

Şairin yaradıcılığında da bu sıradan olan şeirlər dünyanın faniliyinə, dünya malının keçici olmasına, mal-dövlətə bağlanmağın mənasızlığına əsaslanır. Burada dünyanın, var-dövlətin müvəqqəti, mənəviyyatın isə əbədi olması vurğulanır. Burada əsas aparıcı xətt dünyadan əl şəkib zöhd yolunu tutmaq, dünyanın fani, həqiqətin (Haqqın) baqi olmasını dərk etməkdir.

Seyid Əzimin yaradıcılığında qəlb və batini, iç təmizliyi də xüsusi dəyər kəsb edir. Qəlb Allahın evidir, riyakar ibadət dəyərsizdir, ibadətdə, itaətdə əsas şərt səmimiyyətdir. Təsəvvüfdə bunlar ixlasla, batini ibadətlə, qəlbin təmizlənməsi ilə səsləşir. Riyakarlıq hər zaman tənqid edilir, heç vaxt qəbul olunmur. İstər zahiri, görüntü yaratmaq üçün olan dindarlıq, istər mənfəət güdmək xarakterli dindarlıq və şübhəsiz ki, bunların əsasında duran cəhalət və fanatizm heç bir vəchlə qəbul olunmur. Bu xüsusiyyətlər isə bir daha Seyid Əzimin təriqətçi sufi deyil, maarifçi-

irfani şair olduğunu ifadə edir. Bu da təsəvvüfdə insan-i kamil konsepsiyası ilə səsləşir.

Deməli, Seyid Əzim Şirvani yaradıcılığında sufilik sistemli təlim kimi deyil, daha çox poetik-irfani motivlər şəklində təzahür edir. Onun şeirlərində İlahi eşq, dünyanın faniliyi, qəlbin saflaşdırılması və mənəvi kamillik kimi təsəvvüfi ideyalar əks olunsa da, riyakar zahidlik və dini fanatizm də tənqid edilərək şairin maarifçi mövqeyi nümayiş etdirilir. Bu baxımdan Seyid Əzim klassik sufi şairlərindən fərqli olaraq realist və ictimai yönümlü irfani poeziya nümayəndəsi hesab olunur.

Qeyd etdik ki, Seyid Əzim poeziyasında İlahi eşq motivi mühüm yer tutur. Bu eşq yalnız zahiri məhəbbət deyil, insanın mənəvi kamilləşməsinə xidmət edən bir qüvvə kimi təqdim olunur. Klassik sufi poeziyasına uyğun olaraq, eşq qəlbi saflaşdıran və insanı nəfsdən uzaqlaşdıran vasitədir ki, sonunda Haqqa qovuşma durur. Seyid Əzimin bu mövzuda yazdığı şeirləri bizə şairin təsəvvüfə necə dərindən bələd olduğunu, təsəvvüfi ideyaların necə mükəmməl daşıyıcısı olduğunu bir daha sübut edir. Bəzi məqamları araşdırmaq məqsədilə şairin yaradıcılığına nəzər salaq:

Ülasan eşqdə divanə, məhəbbətdəndir.
Çapasan başını mərdanə, məhəbbətdəndir,
Tökəsən qanını meydanə, məhəbbətdəndir,
Olmuşam eylədiyim zəmmə peşiman, əxəvi!(7, s.40)

Şübhəsiz ki, burada söhbət dünyəvi eşqdən, məhəbbətdən getmir və bu misralar Şərq poeziyasının və xüsusilə təsəvvüf (sufilik) düşüncəsinin əsas ideyalarını əks etdirir. Burada eşq adi dünyəvi sevgi deyil, İlahi eşqdir. Söhbət öz mənindən keçib Haqqa qovuşmaqdan gedir. Gedilən yol ağılın yolu deyil, qəlbin apardığı yoldur. Divanə olmaq dünyadan, dünya malından, məntiqdən uzaqlaşmağı, yalnız İlahi eşqlə yaşamağı ifadə edir. Təsəvvüfdə divanəlik – kamillik deməkdir. Başını çapmaq- nəfsi, qorxunu aşmaq anlamını verir. Baş təkəbbürün ifadəsidir. Qan tökmək həm şəhidlik, həm də nəfsi dəf etmək mənasını verir. Şair eşq yolunda etdiklərinə görə peşiman olmadığını, əksinə onları qəbul etdiyini bildirir. Şair həqiqi eşqin insanı divanə etməsindən, qorxudan, nəfsdən imtina etməsindən və bu yolun peşimançılıq yolu olmamasından bəhs edir.

Bu şeir parçasında şair deyir ki, insanın eşq yolunda divanə olması, cəsarətlə hər şeydən keçməsi, hətta canını fəda etməsi eşqin təsirindən doğur. Yəni həqiqi eşq insanı dəyişdirir, onu fədakar, qorxmaz və özündən keçən bir hala gətirir. Eşq yolunda çəkilən bütün əziyyətlər və qurbanlar eşqin gücündən qaynaqlanır. Şair sonda bildirir ki, bu yolda etdiyi hərəkətlərə görə peşman deyil, çünki bunların hamısı eşqin nəticəsidir. Yəni şeir eşqin insanı fədakarlığa və özündən keçməyə aparan gücünü ifadə edir.

Bir başqa nümunəyə müraciət edək:

Ey qəmin bu dili-məhzunə səfa,
Kəbeyi-kuyüvə eşq əhli fəda,

Hər qədər eyləyəsən cövrü cəfa,
Mən sənə eyləməzəm qeyri-vəfa,
Hər nə hökm eylədin, ey mahliqa,
Cümləsi oldu muradınca rəva.(7,s.74)

Bu beytlər də klassik qəzəl üslubunda olub dərin təsəvvüfi məna daşıyır. Təsəvvüfdə zahiri məhəbbət obrazları əslində Allah-bəndə münasibətini, ilahi eşqi və mənəvi səfəri ifadə edir. Burada qəm adi, düşündüyümüz kədər deyil, burada ilahi ayrılıqdan bəhs edilir, yəni Allahdan uzaq düşmənin kədəridir, dili-məhzun – qəlbi qırıq deməkdir. Kəbə Allahın evi, kuy küçə deməkdir, yəni aşiqi Allahın hüzuruna aparan yol. Şair demək istəmiş ki, həqiqi aşiq, yəni sufi özünü Allahın yolunda tam fəda edir və onun üçün Kəbə ilahi hüzurdur..

İkinci beytdə Allaha müraciətdir, sufi Allaha müraciət edərək onun etdiyi cövrü-cəfadan şikayətçi olmadığını bildirir. Sufilikdə cəfa bir sınaqdır, imtahandır. Sufi deyir ki, bütün bu sınaqlara baxmayaraq mən heç vaxt Sənə vəfasız olmaram, Haqq yolundan dönmərəm. Nəhayət, sonda Allaha, ″ey mahliqa″, yəni ey ″gözəl üzlü″ deyərək müraciət edir və Onun hökmünün bəndənin muradınca olduğunu bildirir.

Həmin şeirin bir başqa hissəsində oxuyuruq:

Söylədin eşq ilə zar ol, oldum,
Hicr ilə sinəfkar ol, oldum,
Nəzəri-xəlqdə xar ol, oldum,
Qəmi-ənduhə düçar ol, oldum,
Zərrü bisəbrü qərar ol, oldum,
Dedin ″əğyar ilə yar ol″, oldum. (7,s.74)

Bu parça da çox maraqlıdır. Burada həmçinin aşiqin Allaha müraciətidir, aşiq Allaha müraciət edərək deyir: mənə aciz olmağımı söylədin, oldum, hicrandan sinəsi dağlı ol, dedin, oldum, xalq arasında xar ol, rüsvay ol, dedin, oldum, kədər-qüssə içində ol, dedin, oldum, özünü heç bil, dedin, bildim və nəhayət dedin ki, əğyarla, yəni Haqqdan qeyriləri ilə – dünya, nəfs, maddiyyatla yar ol, oldum. Burada zahiri naqisliklərin içində batini saflığı, dürüstlüyü saxlamaq, sufiliyin ″xəlvət dər əncumən″ , ″camaat içində xəlvətdə olmaq″ prinsipi təzahür etmişdir. Burada eşq və yanmaq, xalq içində alçalmaq-məlamətilik, nəqşbəndilik təriqətinin əlamətlərinə uyğun olaraq heç olmaq -təslimiyyət prinsipləri açıq şəkildə öz əksini tapmışdır.(5,s.130)

Bir başqa qəsidədə oxuyuruq:

Bağlayıbdır Kəbeyi-məqsudə ehrami-səfa –
Kim, minayi-eşqdə zibh etməyə qurban gəlir.(7, s.85)

Dediyimiz kimi şair yaradıcılığında zahiri şərtilikləri, görüntüləri deyil, batini təmizliyi, məzmunu, səmimiyyəti qəbul etmişdir. Şair bu beytdə zahiri həcc terminləri ilə batini-təsəvvüfi həqiqətləri ifadə edir. Kəbeyi-məqsud zahirdə

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 421-429*

Məkkədəki Kəbədir, təsəvvüfdə isə Məqsud olan Haqqın özüdür, İlahi hüzurdur. Ehrami-səfa bağlamaq bildiyimiz Həccə gedərkən bağlanan, geyinilən ehramdır, təsəvvüfdə isə nəfsi dəf etmək, qəlbi saflaşdırmaq, dünyəvilikdən əl çəkməkdir. Minayi-eşq- qurbangahdır, sufilikdə isə eşq meydanıdır, ilahi eşq məqamıdır. Minayi-eşqdə zibh etməyə qurban gəlir, adi anlamda qurban kəsmək mənasını verdiyi halda təsəvvüfdə nəfsı öldürməkdən bəhs edilir. Ümumi məzmun belədir: kim İlahi eşq yoluna qədəm qoyursa, əvvəlcə qəlbini saflaşdırmalı, sonra məqsəd Kəbəsinə, yəni Haqqa yönəlməli və nəhayət Mina məqamında nəfsini qurban verməlidir.

Dediyimiz kimi, Seyid Əzim zahiri , riyakar dindarlığa, ibadətə çox tənqidi yanaşırdı, onun üçün batini saflıq, ibadət hər şeydən üstün olmuşdur:

Demə kim, münkiri-şeyxəm, eşidib əhvalı,
Mən özüm yaxşı müridəm, sözümə ol hali,
Övliyadan bu fəna mənzil olmaz xali,
Yoxsa hər tülküsifət kim, uzada saqqalı,
Demək olmaz ki, ona əhli-kəramətdir bu. (7, s.47)

Burada əsas ideya zahiri din ilə batini kamilliyin fərqidir. Burada zahiri görünüşlə mənəvi həqiqət arasındakı fərq vurğulanır. ″Tülküsifət kim, uzada saqqalı″, dedikdə ancaq zahiri xüsusiyyətlərə fikir verən, təsəvvüfdə ″zahid-i riyakar″və ya ″münafiq″adlandırılan insanlar nəzərdə tutulur. ″Fəna mənzil″ nəfsin dəf edilməsinə işarədir ki, burada həqiqi Allah dostlarının, övliyaların öz ″mən″ini yox etməsini bildirir, şeyxlə mürid məsələsi mürşid-mürid məsələsinə işarədir ki, şair burada özünün təsəvvüf yolçusu olduğunu bəyan edir, kəramət isə sufinin yalnız zahiri xüsusiyyətləri ilə deyil, eyni zamanda kəramət sahibi olmasının zəruriliyinə dəlalət edir.

Şair demək istəyir ki, o, təsəvvüf yoluna və şeyxə qarşı deyil, əksinə həqiqi müriddir, lakin hər zahirdə dindar görünən, saqqal saxlayan və özünü şeyx kimi göstərən insanı həqiqi mürşid və ya kəramət sahibi hesab etmək olmaz. Həqiqi mənəvi kamillik yalnız zahiri görünüşlə deyil, daxili təmizlənmə və ″fəna″(nəfsdən keçmək) mərhələsindən keçməklə əldə olunur.

Könlümü ayineyi-idrak et!
Kəbəni qoyma ki, bütxanə ola,
Dil gərək mənzili-cananə ola.
Bizə bəs eşqi-xudavəndi-əhəd,
″Laşərikə ləhu əllahü səməd″,
Mustafa haqqına, ey hari-xuda,
Şərəfi-mərtəbeyi-ali-əba
Seyyidi eyləmə məhşərdə zəlil. (7, s.108)

Bir məsnəvidən nəzərdən keçirdiyimiz bu parçada da klassik təsəvvüfi məna açıq-aşkar görünməkdədir. Burada ″könül″-insanın İlahi həqiqəti dərk edən mənəvi

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 421-429*

mərkəzi, ″ayna″ isə Allahın nurunun əks olunduğu saf qəlbi simvolizə edir. Şair deyir: Ey Allah qəlbimi elə saflaşdır ki, həqiqəti göstərən bir ayna olsun. Daha sonra ″Kəbəni qoyma ki, bütxanə ola″ deməklə Kəbənin qəlbin İlahi mərkəzi olmasına, bütxanənin isə nəfs olmasına işarə edərək Allahdan qəlbinin elə qorunmasını istəyir ki, orada Allahdan başqa heç bir dünyəvi sevgiyə yer olmasın. Növbəti beytlərdə ″canan″ Allahı, ″dil″(könül) Onun məskənini anladır. Deyir ki, qəlb yalnız Allahın məkanı olmalıdır, Bizə yalnız Allahın eşqi kifayətdir. ″Laşərikə ləhu Allahü səməd″ deyərək şair ixlas surəsinə əsaslanaraq tövhidi vurğulayır. Deyir ki, Onun şəriki və Onun heç nəyə ehtiyacı yoxdur.Mustafa - Hz. Məhəmməd, Bari-Xuda -Yaradan Allah, Ali-əba- Əhli-beyti ifadə edir. Bu son beytlərin mənası belədir: Ey Allah, Məhəmməd Peyğəmbərin, Əhli-Beytin hörmətinə Seyyidi(yəni şairin özünü) məhşər günündə rüsvay etmə.

Beləliklə, klassik Azərbaycan şeirinin məşhur nümayəndələrindən olan Seyid Əzim Şirvaninin yaradıcılığı ilə daha yaxından, daha dərindən tanış olduqda bu poeziyanın özündə nələri ehtiva etdiyini daha aydın görmək olur.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Ağayeva G. S.Ə.Şirvaninin lirikasının problematikası, SEYİD ƏZİM ŞİRVANİ - 190 "ALƏMDƏ SƏSİM VAR MƏNİM" *mövzusunda* Respublika elmi konfransının MATERİALLARI *23 may 2025 Şamaxı, Azərbaycan* 592səh
2. ƏHMƏDLİ R. SEYİD ƏZİM ŞİRVANİNİN FƏLSƏFİ GÖRÜŞLƏRİ 2. BAKI - «ELM» - 2005, 91səh
3. Əliyeva A, Əhmədova S. ″Şamaxıdan doğan günəş – Seyid Əzim Şirvani,Bakı-2020, 62 səh.
4. Əsgərli Z. Seyid Əzim Şirvani, Bakı-″Elm″-2005, 64 səh
5. İZAHLI DİNİ TERMİNLƏR LÜĞƏTİ, Azərbaycan İlahiyyat İnstitutu, Bakı-2020, 320 səh.
6. S.Ə.Şirvani. Seçilmiş əsərləri, ″MAARİF″ NƏŞRİYYATI, BAKI-2002, 296 səh.
7. S.Ə.Şirvani. Seçilmiş əsərləri, 3 cilddə, II cild, ″AVRASİYA PRESS″, BAKI-2005, 384səh
8. VAHİDOVA M.Q., SEYİD ƏZİM ŞİRVANİNİN LİRİKASI AVTOREFERAT BAKI-2014,24 səh
9. (http://www.anl.az/down/meqale/turkustan/2018/noyabr/618139.htm)
https://www.yenises.az/az/posts/detail/hecer-atakisiyeva-seyid-ezim-sirvaninin-dunyagorusu-1762232008

**Rəyçi: F.ü.f.d. Məsiağa Məhəmmədi**